# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 7 (7102) | 13 aprel 2021-ci il | Qiyməti 40 qəpik


## Ağırlıqqaldıranımız yenidən Avropa zirvəsində

### Boyanka Kostova Tokioya lisenziyanı Moskvada təmin etdi




***Aprelin 3-11-də Rusiyanın paytaxtı Moskvada ağırlıqqaldırma üzrə kişilər və qadınlar arasında Avropa çempionatı keçirilib.***

40 ölkədən 182 kişi və 179 qadın idmançının qüvvəsini sınadığı yarışda Azərbaycanı qadınlarda Boyanka Kostova (59 kq), kişilərdə isə Əliş Nəzərov (102 kq) və Dadaş Dadaşbəyli (109 kq) təmsil ediblər.

Yarışın ilk günü dünya və üçqat Avropa çempionumuz Boyanka Kostova uğurla çıxış edərək növbəti dəfə qitə zirvəsinə yüksəlib. Məşqçi Sərdar Həsənovun rəhbərliyi altında yarışan Boyanka A qrupunda birdən qaldırmada 95 kq nəticə ilə bürünc, təkanla qaldırmada isə 116 kq-la qızıl medal qazanıb. Toplamda 211 kq nəticə göstərən xanım idmançımız qızıl medala layiq görülüb.

Yarışa Asif Məmmədovun rəhbərliyi altında yollanan kişi idmançılarımız da Vətənə əliboş dönməyiblər.

102 kq çəki dərəcəsində A qrupunda mübarizə aparan Dadaş Dadaşbəyli birdən qaldırmada 177 kq-ı başı üzərinə qaldırıb və bütün rəqiblərini üstələyərək kiçik qızıl medala sahib çıxıb. Təkanla qaldırmada 202 kiloqram nəticə göstərən idmançımız 7-ci olub. Ümumilikdə, 279 kq (177+202) nəticə göstərən D.Dadaşbəyli yekun sıralamada bürünc medala sahib çıxıb.

səh. 2



## "Avro-2020": Bakı Olimpiya Stadionuna tutumunun 50 faizi qədər azarkeş buraxılacaq

Ümumdünya Səhiyyə Təşkilatının qərarı ilə ötən il martın 12-də koronavirus epidemiyasının qlobal pandemiya elan olunması nəzərə alınaraq, UEFA İcraiyyə Komitəsinin 2020-ci il martın 17-də keçirilmiş iclasında "Avro-2020"nin daha əvvəl açıqlanmış tarixdən düz bir il sonra - 2021-ci il iyunun 11-dən iyulun 11-dək olan müddətdə keçirilməsi barədə qərar qəbul olunub. Bundan əlavə, UEFA-nın qərarında qeyd olunub ki, pandemiya ilə əlaqədar "Avro-2020"nin oyunlarının keçiriləcəyi stadionlara azarkeşlərin hansı sayda və hansı prosedurlar əsasında buraxılacağı barədə qərar yerli hökumət və dövlət strukturları tərəfindən qəbul ediləcək.

səh. 2

## Tokio Olimpiadasına 100 gün qaldı




***Tokio Olimpiadasının baş tutmasına 100 gün qalır. Dünya ictimaiyyəti sağlamlıq, ədalət və birliyin rəmzi olan növbəti Olimpiya Oyunlarının başlanmasını böyük həyəcan və dərin narahatlıqla gözləyir.***

Düzdür, sabah nələrin baş verəcəyini, insanları çaş-baş saxlamış bu təhlükəli virusun, koronavirus infeksiyasının bütün sahələrə, o cümlədən idmana bundan sonra da vuracağı zərbənin miqyasının hansı səviyyədə olacağını indidən söyləmək bir qədər çətindir. Pandemiya adi insanlarla yanaşı, idmançılar üçün də çox gözlənilməz olub və bəziləri bu stressə dözməyərək hətta karyeralarını bitirmək məcburiyyətində qalıblar, digərləri formalarını bərpa etmək üçün vəziyyətin düzəlməsini gözləyirlər.

Bütün bunlara baxmayaraq Beynəlxalq Olimpiya Komitəsi (BOK) və Tokio Olimpiadasının təşkilat komitəsi, Yaponiya hökuməti Oyunları ən yüksək səviyyədə və təhlükəsiz şəraitdə keçirmək üçün gərgin səylər göstərir, tamaşaçılarsız, və ya tamaşaçılarla, necə olursa-olsun mütləq olimpiadanı keçirmək istəyirlər. BOK-un prezidenti Tomas Bax "Tokio-2020"nin dünyada tarixi Olimpiada kimi qəbul ediləcəyinə inandığını bildirib. Avropa Olimpiya Komitələrinin (AOK) baş katibi Rafael Paqnozzi isə "Tokio-2020" Yay Olimpiya Oyunlarının baş tutmasının böyük idmanın qayıdışı kimi xarakterizə olunacağını vurğulayıb.

Sözsüz ki, Oyunların təşkilində müəyyən məhdudiyyətlərin tətbiqi onu əvvəlki olimpiadalardan fərqləndirəcək. Son günlər daha bir qərarın qəbulu gözlənilir. Belə ki, Yaponiya hökuməti "Tokio-2020" Yay Olimpiya və Paralimpiya Oyunlarına gələcək rəsmi qonaqların sayını iki dəfə azaltmaq imkanlarını araşdırır. Bildirilir ki, hazırda Olimpiya Oyunlarına təqribən 90 min xarici qonağın gələcəyi gözlənilir. Onların təqribən 30 mininin idmançılardan, komandaların digər üzvlərindən və xidmət heyətindən ibarət olacağı qeyd edilir.

səh. 3

### Turdan tura

## Son dövrə - son şans




***Milli futbol çempionatının Premyer liqasında mübarizə son fazasına - dörd dövrədən sonuncusuna qədəm qoyub.***

Bir dövrənin sonu, digərinin əvvəlində mövsümün taleyini həll edə biləcək mühüm hadisələr baş verib. Cəmi bir komandanın ətrafında gerçəkləşən həqiqət budur ki, "Neftçi" min bir zülmlə əldə etdiyi üstünlüyü iki tur ərzində nəinki əldən verdi, hətta prinsipial rəqibi "Qarabağ"dan 1 qələbə hesabı ilə geri də düşdü.

Buna qədər qeyd etdiyimiz kimi, "Qarabağ", bir qayda olaraq, finiş ərəfəsində mobilləşib sürət yığa bilir. Bu səbəbdən "Neftçi"nin bu məsul məqamda büdrəməsi yenidən klubdakı ab-havaya, psixoloji duruma əks-təsir göstərə bilər.

səh. 7



# Azərbaycan idmanı: möhtəşəm qələbələr sorağında

***Hər il martın 5-i Azərbaycan bədən tərbiyəçiləri və idmançıları, ölkəmizin idman ictimaiyyəti yüksək fəallıq şəraitində, böyük ruh yüksəkliyi ilə Bədən Tərbiyəsi və İdman Gününü qeyd edirlər.***

Asudə vaxtın təşkilində, gələcəyimiz olan gənc nəslin sağlam və gümrah böyüməsində, hərtərəfli inkişafında, həmçinin hərbi-vətənpərvərlik tərbiyəsində, fiziki hazırlığının yüksəlməsində çox mühüm rol oynayan bədən tərbiyəsi və idman həyatımızın ayrılmaz hissəsinə çevrilib. Ölkəmizdə əsl inkişaf yolunda olan idman sahəsində əldə edilmiş böyük uğurlar- dünya və Avropa çempionatlarında, Olimpiya və Paralimpiya oyunlarında, digər mötəbər yarışlarda əldə edilən qələbələr, paytaxt Bakıda, eləcə də, respublikamızın müxtəlif bölgələrində inşa edilmiş biri-birindən möhtəşəm olimpiya idman kompleksləri ölkəmizi gündən-günə inkişaf etməkdə olan idman ölkəsinə çevirib.

Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən qeyd edilir. Azərbaycan idmanı üçün xüsusilə əlamətdar bir gün olan bu tarixin martın 5-də qeyd olunması təsadüfi deyil. Belə ki, 1995-ci il martın 5-də ümummilli lider Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, əhali arasında sağlam həyat tərzinin təbliğ etmək, bədən tərbiyəsinin maddi-texniki bazasını möhkəmləndirmək, gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratmaq üçün İdman Fondunu təsis edib. Beləliklə, ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməli qoyulub. 2006-cı ildə isə Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yenidən təşkil olunub. Ölkəmizdə idman sahəsinin tərəqqisində mühüm rol oynayan Gənclər və İdman Nazirliyi tərəfindən gənc nəslin formalaşmasına və hərtərəfli inkişafına xüsusi diqqət yetirilir.

1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edən Prezident İlham Əliyevin uğurlu idman siyasəti və böyük səyləri sayəsində ölkəmiz dünyanın qabaqcıl idman dövlətinə çevrilib.

Bədən tərbiyəsinə və idmana diqqətin ildən-ilə artması mühüm qələbələrin qazanılması üçün gözəl zəmin yaradıb. Ölkəmizdə idmanın maddi-texniki bazasının dayanmadan möhkəmləndirilməsi, dövlətimizin başçısının idmana böyük diqqət və qayğısı, dünyanın ən müasir standartlarına cavab verən Olimpiya İdman komplekslərinin inşası və müxtəlif idman bazalarının yaradılması öz bəhrələrini verir. Olimpiya, dünya çempionatlarında, qitə səviyyəli müxtəlif beynəlxalq turnirlərdə qazanılan medalların, əldə edilən qələbələrin sayı ildən-ilə artır.

İdmanımızın bu bayram günündə ötən dövrdə keçilmiş yoluna nəzər salmalı olsaq, ildən-ilə nailiyyətlərin sayının artdığını görərik. Azərbaycan 1996-cı ildə ilk dəfə müstəqil dövlət kimi qatıldığı Atlanta Olimpiadasında Namiq Abdullayevin gümüş medalına sevinmişdisə, artıq ikinci olimpiadasında - Sidney Yay Olimpiya Oyunlarında 2 qızıl və 1 bürünc medalı ilə qürur duydu. 2004-cü il Afina Yay Olimpiya Oyunları da komandamız üçün uğurlu oldu - 1 qızıl, 4 bürünc medal. Sonrakı Olimpiadada - 2008-ci ildə Pekində keçirilmiş Oyunlarda komandamız mükafatların sayını 7-yə çatdırdı - 1 qızıl, 2 gümüş, 4 bürünc medal.

*(Ardı 3-cü səhifədə)*

# Bədən Tərbiyəsi və İdman Günü qeyd edildi

*(Əvvəli 1-ci səhifədə)*

Nazirliyin İdman şöbəsinin müdiri Fərid Mansurov da idman ictimaiyyətini təbrik edərək onlara can sağlığı və qarşıdakı yarışlarda uğurlar arzulayıb.

Qeyd edək ki, martın 5-də Gənclər və İdman Nazirliyi Bədən Tərbiyəsi və İdman Günü münasibətilə onlayn konfrans keçirib. Konfransda Milli Məclis Sədrinin müavini Adil Əliyev, gənclər və idman nazirinin müavinləri İsmayıl İsmayılov və İntiqam Babayev, Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə və Xəzər İsayev, baş katibin müavini Azər Əliyev və başqaları iştirak edib.







Həmin gün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Azərbaycan Gənclər və İdman Nazirliyi tərəfindən Bədən Tərbiyəsi və İdman Günü münasibətilə təltif olunan bir qrup idman ictimaiyyəti nümayəndəsinin mükafatlandırılma mərasimi keçirilib. Ümumilikdə 19 mütəxəssis Azərbaycan Respublikasının Fəxri bədən tərbiyəsi və idman işçisi, 14 nəfər Əməkdar məşqçi, 2 mütəxəssis respublika dərəcəli hakim, 4 nəfər Əməkdar idman ustası fəxri adlarına layiq görülüb. Vətən müharibəsində göstərdikləri şücaətə görə 5, ölkəmizdə idmanın inkişafında göstərdiyi xidmətlərə görə 12, idmanın təbliğatında xidmətlərinə görə 2, idman sahəsində göstərdiyi könüllü fəaliyyətinə görə 1, Azərbaycan idmanının inkişafına töhfə verdiyinə görə 1 mütəxəssis fəxri diplomla təltif olunub.

# Milli Məclisdə Vətən müharibəsində iştirak etmiş bir qrup idmançı və məşqçilərlə görüş keçirilib

***Martın 4-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Vətən müharibəsində iştirak etmiş bir qrup idmançı və məşqçilərlə görüş keçirib.***

Sədr müavini Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatla ölkəmizin tarixində yeni səhifə açıldığını bildirib. Adil Əliyev qeyd edib ki, Qələbədən sonra əsas prioritetlər işğaldan azad edilmiş ərazilərimizə böyük qayıdışın təmin edilməsi və ərazilərimizin bərpa olunmasıdır.

Görüşdə 5 mart - Bədən Tərbiyəsi və İdman Günü barədə söhbət açılıb. Adil Əliyev idmanın ölkəmizdə daim diqqət mərkəzində olması, bu sahənin inkişaf etdirilməsi üçün dövlətimizin həyata keçirdiyi tədbirlər, ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi barədə fikirlərini bölüşüb. Yarışlarda yüksək nəticə göstərən idmançıların daim ölkə başçısı tərəfindən qəbul edilməsinə və mükafatlandırılmasına diqqət çəkən sədr müavini bunun dövlətimizin başçısının idmana diqqət və qayğısının bariz nümunəsi olduğunu qeyd edib.



Fikir mübadiləsi zamanı gənc nəslin idmana marağının artırılması, bu amilin gənclərdə vətənpərvərlik hissinin formalaşmasında və onların zərərli vərdişlərdən uzaq olmasında rolu barədə danışılıb.

Görüşün sonunda Vətən müharibəsinin iştirakçısı olan idmançılara, məşqçi müəllimlərə və idman sahəsində fəaliyyət göstərən bir qrup şəxsə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

# MOK-da "Olimpiya Gündəliyi 2020" komissiyasının növbəti iclası keçirilib

***Martın 3-də Milli Olimpiya Komitəsində (MOK) "Olimpiya Gündəliyi 2020" komissiyasının növbəti iclası keçirilib.***

Komitənin baş katibinin müavini Azər Əliyevin sədrliyi ilə keçirilən iclasda komissiyanın 2020-ci il ərzində gördüyü işlər, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 2020-2025-ci illər üçün hazırladığı yeni strateji yol xəritəsi, "Tokio-2020" Olimpiya Oyunlarına dair təhlükəsizlik qaydaları, həmçinin komissiyanın 2021-ci il üzrə fəaliyyət planı müzakirə olunub.

BOK-un yeni - "Olimpiya gündəliyi 2020+5" strateji sənədi haqda komissiya üzvlərinə məlumat verən MOK-un marketinq idarəsinin müdiri Mehman Kərimov qarşıdakı 5 il ərzində Olimpiya hərəkatının beynəlxalq səviyyədə yol xəritəsi hesab olunan sənədin vacib məqamlarından danışıb. M.Kərimov bildirib ki, 15 tövsiyədən ibarət sənəd əsasən, 5 istiqamət üzrə qruplaşdırılıb. Onun sözlərinə görə, "Olimpiya gündəliyi 2020+5" sənədində xüsusi olaraq, ölkələr və cəmiyyətlər arasında həmrəyliyin artırılmasına diqqət çəkilib. Bundan başqa pandemiya şəraitində sürətləndirilən rəqəmsallaşma prosesindən kənarda qalmamaq tövsiyə olunur. Olimpiya dəyərlərini təbliğ etmək üçün rəqəmsal texnologiyalardan güclü bir vasitə kimi istifadə olunması vurğulanıb. Həmçinin strateji sənəddə BMT-nin davamlı inkişaf məqsədlərinə töhfə verilməsinin vacibliyi qeyd olunub. Daha bir istiqamət isə Olimpiya idman qurumlarına etibarlılığın artırılmasıdır. BOK pandemiyanın yaratdığı böhranın aradan qaldırılması ilə bağlı idman hərəkatının daha aktiv iştirakını vurğulayıb.



MOK-un beynəlxalq əlaqələr idarəsinin müdiri Anar Bağırov "Tokio-2020" Yay Olimpiya Oyunlarının daha təhlükəsiz və uğurla həyata keçirilməsi üçün nəşr edilmiş "Playbook" haqda komissiya üzvlərinə məlumat verib.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar olaraq, bu il idman ictimaiyyətinin qatılacağı onlayn formatda konfransın planlaşdırıldığını bildirib. F.Mansurov qadın idmançıların sayının artırılması ilə bağlı daha genişmiqyaslı təbliğat işlərinin aparılması haqda da tövsiyələr verib.

Komissiya üzvləri, o cümlədən "İdman hamı üçün" televiziya proqramının 2021-ci il fəaliyyətini də müzakirə ediblər.

# Azərbaycan idmanı: möhtəşəm qələbələr sorağında



*(Əvvəl 2-ci səhifədə)*

2012-ci il London Yay Olimpiya Oyunlarında idmançılarımız nailiyyətlərin sayını bir qədər də artırmağa nail oldular.

2012-ci il Prezident İlham Əliyevin Sərəncamı ilə "İdman İli" elan edilmişdi və Azərbaycan idmançıları onlara göstərilən etimad və böyük qayğıya cavab olaraq daha böyük nailiyyətlər əldə etməyə müvəffəq oldular.

Londonda təşkil olunan Yay Olimpiya Oyunlarında 16 növ üzrə 53 idmançı ilə təmsil olunan komandamız Vətənə 2 qızıl, 2 gümüş və 6 bürünc medalla qayıtdı. 2016-cı ildə Rio-de-Janeyroda keçirilmiş Olimpiadada isə Azərbaycan milli komandası möhtəşəm qələbəyə imza atdı - idmançılarımız milli komandamızın aktivinə 18 medal yazdırdılar. Yığmamız bu nəticə ilə, medal sayına görə 14-cü yerdə qərarlaşdı.

Dünyanın ən inkişaf etmiş idman ölkələrindən biri kimi tanınan Azərbaycan, həm də idman mərkəzlərindən birinə çevrilib. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Sərhədçi İdman Olimpiya Mərkəzi, Beynəlxalq Atıcılıq Mərkəzi və digər yüksək standartlara cavab verən idman qurğuları ölkəmizi irimiqyaslı idman tədbirlərinin, eləcə də, dünya və Avropa çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Təsadüfi deyil ki, mötəbər idman tədbirləri - 2012-ci ildə futbol üzrə 17 yaşadək qızların dünya çempionatı, 2015-ci ildə dünyaya səs salan ilk Avropa Oyunları, ondan 1 il sonra 17 yaşadək oğlanlar arasında futbol üzrə qitə çempionatı, 42-ci Ümumdünya Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, 2019-cu ildə bədii gimnastika üzrə dünya çempionatı, həmçinin nüfuzlu Formula-1 Azərbaycan Qran-priləri bu idman obyektlərində yüksək səviyyədə baş tutdu.

Azərbaycan hazırda ən nüfuzlu idman tədbirlərinə ev sahibliyi etmək üçün geniş imkanlara malik idman mərkəzlərindən biri kimi diqqət mərkəzindədir. Qarşıdakı illərdə də bir sıra nüfuzlu idman tədbirlərinin ölkəmizdə keçirilməsi planlaşdırılıb. Bu il dünya idman tarixinin ən mühüm hadisələrindən biri olan futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir finalın isə bir qarşılaşması Bakıda oynanılacaq. İyunun 13-də, 17-də və 21-də A qrupunun üç oyunu, iyulun 4-də isə dörddəbir final mərhələsinin bir görüşü 68,7 min azarkeş tutumuna malik Bakı Olimpiya Stadionunda keçiriləcək. Ölkəmizin paytaxtı bu mötəbər turnirə ev sahibliyi edən 12 Avropa şəhərindən biri kimi diqqəti cəlb edəcək. Hazırda bu idman tədbirinə ölkəmizdə görülən hazırlıq işləri davam etdirilir.

Beynəlxalq arenalarda keçirilən ən nüfuzlu yarışlarda doğma Vətənimizin - Azərbaycanın bayrağını beynəlxalq arenalarda daim ucalarda dalğalandırmaq, himnimizi səsləndirmək üçün böyük əzmkarlıqla mübarizə aparan idmançılarımızla həmişə qürur duymuşuq. Onların nümayiş etdirdikləri vətənpərvərlik, yüksək əzmkarlıq hissi gənclərimizin hər biri üçün gözəl nümunədir. Qəhrəman idmançılarımız Vətən müharibəsində də öz əzmkarlıqları, qəhrəmanlıqları, igidlikləri ilə ad qazandılar, dillərdə dastan oldular. İdman sahəsi üzrə 500 nəfər İkinci Qarabağ müharibəsində ön cəbhədə iştirak edərək Vətənin azadlığı uğrunda ölüm-dirim savaşına mərdliklə atıldılar. Onlardan 54 nəfəri torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidliklə şəhidlik zirvəsinə yüksələrək əbədiyyətə qovuşdular.

Bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, idmanda da böyük nailiyyətlərin əldə edilməsi üçün geniş imkanlar yaradılmaqdadır. İdmançılarımız əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilən idman siyasəti nəticəsində daha möhtəşəm qələbələr qazanmaq əzmindədirlər.

*L.Sabirqızı*

# İdmanın inkişafına böyük töhfələr verən Sumqayıtda bayram tədbiri



***Bu gün Azərbaycan dünyanın inkişaf etmiş idman mərkəzlərindən birinə çevrilib. Azərbaycanın bütün bölgələri ilə yanaşı Sumqayıtda da idmanın inkişafı daim diqqət mərkəzində saxlanılır.***

Ölkəmizin ikinci ən böyük şəhərində idmanla məşğul olmaq üçün müasir tələblərə cavab verən infrastruktur formalaşdırılıb. Sumqayıtda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. Şəhərin idmançıları beynəlxalq səviyyəli yarışlarda yüksək nəticələr əldə edirlər.

Sumqayıt idmanının ən böyük uğuru müxtəlif illərdə keçirilmiş Yay Olimpiya və Paralimpiya oyunlarında qazınılmış medallardır. Belə ki, Paralimpiya Oyunlarının para-cüdo üzrə ikiqat qalibi və bürünc mükafatçısı İlham Zəkiyev, gümüş mükafatçıları Kərim Sərdarov, Tofiq Məmmədov, bürünc mükafatçısı Rövşən Səfərov, boks üzrə Yay Olimpiya Oyunlarının bürünc mükafatçıları Fuad Aslanov, Şahin İmranov, Yeniyetmələrin Yay Olimpiya Oyunlarının sərbəst güləş üzrə gümüş medalçısı Kənan Quliyev, cüdo üzrə gümüş medalçısı Natiq Qurbanlı qazandıqları yüksək nailiyyətlərlə ölkə idmanının dünya səviyyəsində tanınmasına böyük töhfə veriblər. Sumqayıtlı şahmatçı Zeynəb Məmmədyarova 18 yaşadək qızlar arasında dünya birinciliyinin, 20 yaşadək qızlar arasında Avropa birinciliyinin qızıl mükafatçısı, Ümumdünya Şahmat Olimpiadasının gümüş mükafatçısı olub. Şəhriyar Məmmədyarov dünyada 20 yaşadək şahmatçılar arasında ikiqat dünya çempionu tituluna sahib olan yeganə şahmatçıdır və dünyanın ən güclü şahmatçılarından biridir. Taekvondo üzrə Niyaməddin Paşayev, boks üzrə Elvin Məmişzadə, karatenin VKF versiyası üzrə Rəfael Ağayev dünya çempionu olmaqla şəhərin idman tarixinə yeni parlaq səhifə yazıblar. Bu ənənəni yeniyetmə və gənc idmançılar davam etdirərək Avropa və dünya birinciliklərində mükafatçılar sırasına adlarını yazdırırlar.



Tokioda keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarına Sumqayıtın 4 idmançısı - karatenin VKF versiyası üzrə Rəfael Ağayev, cüdo üzrə İlham Zəkiyev, pauerliftinq üzrə Elşən Hüseynov və güllə atıcılığı üzrə Kamran Zeynalov vəsiqəni təmin ediblər.

5 Mart - Bədən Tərbiyəsi və İdman Günündə Sumqayıt idmançıları və idman ictimaiyyətinin nümayəndələri bir araya gəliblər. Martın 4-də Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı və şəhərin idman təşkilatları, rəhbərləri, bədən tərbiyəsi və idman veteranları, dünya və Avropa yarışlarının mükafatçıları, idman növləri üzrə baş məşqçilərin iştirakı ilə tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Sumqayıt şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, daha sonra şəhidlər xiyabanını ziyarət ediblər.

Tədbiri giriş sözü ilə açan Sumqayıt şəhər İcra hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov bayram münasibəti ilə iştirakçıları təbrik edib, bədən tərbiyəsi və idman sahəsinə göstərilən diqqət və qayğıdan, mötəbər yarışlarda ölkəmizin əldə etdiyi yüksək nailiyyətlərdə Sumqayıt idmançılarının özünəməxsus payı olmasından danışıb.

Əlamətdar gün münasibətilə bədən tərbiyəsi və idman sahəsində səmərəli fəaliyyətinə görə idman ictimaiyyətinin bir qrup nümayəndəsi Gənclər və İdman Nazirliyinin, şəhər İcra Hakimiyyətinin və şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərmanı ilə təltif olunub.

Daha sonra Zoom platforması üzərində davam edən tədbirdə iştirak edən Qərib Əliyev, Yaşar Hacıyev, Fuad Aslanov, Fatma Məmmədova, Hafiz Həmidov çıxış edərək idman sahəsində əldə olunmuş uğurlardan, həyata keçirilən ardıcıl tədbirlərdən, idmançılara göstərilən diqqət və qayğıdan danışıb, Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə idman ictimaiyyətini təbrik ediblər.

Eyni zamanda Gənclər və İdman Baş idarəsi tərəfindən Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə yeniyetmələr və gənclər arasında rəsm-sərgi müsabiqəsi təşkil olunub.

# Paralimpiya Komitəsinin əməkdaşlarına fəxri diplomlar verilib



***Gənclər və İdman Nazirliyi Milli Paralimpiya Komitəsinin (AMPK) 25 illiyi münasibətilə və Paralimpiya hərəkatında göstərdiyi xidmətlərinə görə komitənin bir qrup əməkdaşını fəxri diploma təltif edib.***

Təltif edilənlər sırasında AMPK-nın baş katibi Kamal Məmmədov, komitənin aparıcı mütəxəssisləri Leyli Yusifli və Azər Məmmədli, Uşaq Paralimpiya Komitəsinin psixoloqu Gülşən Nəsirova, AMPK-nın milli komandalarının baş məşqçiləri Oleq Panyutin (atletika), Ramin İbrahimov (cüdo - qadınlar millisi), Asəf Məlikov (qılıncoynatma), Amid Həsənquliyev (para-velosiped), Ruqiyyə Qubuşova ((stolüstü tennis), Yaşar Səfərov (para-taekvondo) və Vaqif Bayramov (Uşaq Paralimpiya Komitəsinin Boccia millisi), eləcə də AMPK-nın cüdo millisinin məşqçisi Fərid Ağakişiyev var.

Təltifləri Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, olimpiya çempionu Fərid Mansurov təqdim edib.

Daha sonra AMPK-nın baş katibi Kamal Məmmədov, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurova və nazirliyin Kütləvi bədən tərbiyəsi və idman sektorunun müdiri Aydın Məmmədova Komitənin 25 illik yubileyinə həsr edilmiş "Yenilməz" romanını təqdim edib.

# Gəncədə Şəhidlər xiyabanı marşrutu üzrə veloyürüş keçirilib

***5 Mart - Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar Yol Patrul Xidmətinin və təcili tibbi yardım xüsusi avtonəqliyyatının müşayiəti ilə Gəncədəki Heydər Əliyev Park Kompleksindən Şəhidlər xiyabanı marşrutu üzrə veloyürüş keçirilib.***



Tədbirin əsas məqsədi idmançılarda vətənpərvərlik ruhunun aşılanması və 44 günlük müharibənin Azərbaycan xalqı üçün əsl qəhrəmanlıq tarixi nümunəsinin olmasını təbliğ etməkdir.

On yeddi idmançının iştirakı ilə keçirilən veloyürüşdə Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəhbərliyi, əməkdaşlar və iştirakçılar Şəhidlər xiyabanına gələrək, memorial kompleksi ziyarət edib, Vətən müharibəsində şəhid olanların məzarına gül dəstələri düzüb və əziz xatirələrini bir dəqiqəlik sükutla yad ediblər.

## Şəhid Emil Şamilovun xatirəsinə həsr olunan turnirin qalibləri mükafatlandırılıb



*Vətən müharibəsi şəhidi Emil Şamilovun xatirəsinə həsr olunan şahmat və 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə keçirilmiş kata üzrə onlayn turnirlərin qalibləri Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində (BŞGİBİ) mükafatlandırılıb.*

Tədbirdə çıxış edən Baş İdarənin rəisi Raqif Abbasov Vətən uğrunda canlarını fəda edən bütün şəhidlərimizin, o cümlədən Emil Şamilovun xatirəsinin daim xalqımızın qəlbində yaşayacağını vurğulayıb, belə igid övlad böyüdən valideynlərə minnətdarlığını bildirib. O, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğının bundan sonra da davam etdiriləcəyini söyləyib. R.Abbasov tədbir iştirakçılarını və bütün idman ictimaiyyətini 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə təbrik edərək onlara uğurlar arzulayıb.

Karantin rejimi ilə əlaqədar müxtəlif saatlarda Baş İdarəyə gələn qaliblərə mükafatları R.Abbasov, Sabunçu Rayon Gənclər və İdman İdarəsinin rəisi Rakif Əliyev, şəhid Emil Şamilovun qardaşı Əmirxan və digər şəxslər təqdim ediblər.

Təltif olunan klub rəhbərləri, məşqçi, hakim və idmançılar pandemiya dövründə reallaşdırılan müxtəlif layihələrlə məşqçi və idmançılara göstərilən diqqət və qayğıya görə Baş İdarənin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Xatırladaq ki, karate üzrə dünya, Avropa və 12 qat Azərbaycan çempionu olan Emil Şamilov Vətən müharibəsində ordu sıralarına könüllü yazılaraq, döyüşlərə yollanıb. Hadrut istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Emil Şamilov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

## Formula 1 Azərbaycan Qran-Prisinə hazırlıqlar başlayıb



Bakı Şəhər Halqası artıq beşinci dəfə Formula 1 Azərbaycan Qran-Prisini qəbul edəcək. Yarış təqvimində sayca 6-cı olacaq Azərbaycan Qran-Prisi iyunun 4-6-da baş tutacaq. Qeyd edək ki, Formula 1-in Azərbaycanla yanaşı, Bəhreyn, İtaliya, Portuqaliya, İspaniya, Monako, Kanada, Fransa, Avstriya, Böyük Britaniya, Macarıstan, Belçika, Niderland, Rusiya, Sinqapur, Yaponiya, ABŞ, Meksika, Braziliya, Avstraliya, Səudiyyə Ərəbistanı və Əbu-Dabidə təşkili planlaşdırılır. 2021-ci ilin ilk Qran-Prisi martın 28-də Bəhreyndə, daha sonra İtaliya, Portuqaliya, İspaniya və Monakoda keçiriləcək. Bunun ardınca pilotlar "küləklər şəhəri"nə təşrif buyuracaqlar. Çempionata dekabrın 10-12-də Əbu-Dabidəki yarış ilə yekun vurulacaq. Dünya çempionatında bu mövsüm ümumilikdə, 23 Qran-Prinin keçirilməsi nəzərdə tutulub.

***Bakıda Formula 1 hazırlığı***

Bakıda Formula 1 azarkeşlərinin təxminən 2 illik həsrəti başa çatır. 2024-cü ilə qədər davam edəcək "Kral yürüşü" artıq yeni mövsümə hazırlaşır. Hazırlıqlar ölkəmizdə tətdbiq olunan karantin rejiminə uyğun şəkildə aparılır. Yarış məkanı qırmızı, sarı və yaşıl zonalara bölünəcək. Bütün mərhələlərdə olduğu kimi Azərbaycan Qran-Prisində də 10 komandanın 20 pilotu yarışacaq. Bakı Şəhər Halqası hazırlıqlara Pit-Stop zonasından start verəcək.

***Azərbaycan Qran-Prisi media nümayəndələrinin akkreditasiyasına start verib***

Martın 2-də "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) təşkilatçılığı ilə Bakıda yerli KİV-lərin nümayəndələri üçün Formula 1 Azərbaycan Qran-Prisinin akkreditasiya qaydaları haqqında seminar təşkil olunub. Seminarda iştirakçılara bu ilin yayında Bakıda keçiriləcək Formula 1 Qran-Prisinin akkreditasiya prosesi haqqında ətraflı məlumat verilib. Artıq beş ildir ki, BŞH-nin "Formula 1 Management" və Beynəlxalq Avtomobil Federasiyası ilə səmərəli əməkdaşlığı nəticəsində hər il, mütəmadi olaraq 100-dən çox jurnalist və fotoqraf, 7 milli televiziya qurumu yarışa akkreditasiya alır. Bu il pandemiya ilə əlaqədar bütün dünyada akkreditasiya prosesində jurnalistlər üçün qoyulan məhdudiyyətləri nəzərə alaraq, BŞH mətbuat nümayəndələrini akkreditasiya dövründə daha operativ və səmərəli işbirliyinə çağırır. Azərbaycan Qran-Prisi də daxil olmaqla, bütövlükdə Formula 1 üzrə dünya çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və "Formula One Management" şirkəti tərəfindən həyata keçirilir.

***Azərbaycan Qran-Prisi azarkeşsiz keçiriləcək***

Bu il Formula 1 Azərbaycan Qran-Prisinin azarkeşlərin tribunalardan izləməsinə icazə verilməyəcək. Bu barədə Bakı Şəhər Halqasının yeni mətbuat katibi Ayan Nəcəf deyib. O, bildirib ki, belə bir qərar Azərbaycanın Formula 1 şirkəti qarşısındakı öhdəliyi səbəbindən və ölkənin turizm potensialının pandemiya dövründən sonra da nümayiş etdirilməsi məqsədilə qəbul olunub.




Xatırladaq ki, ötən mövsüm Bakı Şəhər Halqası (BŞH) Əməliyyat Şirkəti COVİD-19 pandemiyası səbəbindən keçirilməsi planlaşdırılan Azərbaycan Qran-Prisini təxirə salmağı qərara almışdı. Bu qərar Formula 1 rəhbərliyi, Beynəlxalq Avtomobil Federasiyası (FİA) və Azərbaycan Respublikası hökuməti tərəfindən aparılmış birgə müzakirələr nəticəsində qəbul olunmuşdu. Yarışın təxirə salınmasında əsas məqsəd Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəyə gələn Formula 1 azarkeşləri, komanda heyətləri və çempionatın digər iştirakçılarının sağlamlığını və rifahını qorumaq idi.

*Səkinə*

## Milli Qəhrəmanın xatirəsinə həsr olunan yarış

Azərbaycanın Milli Qəhrəmanı şəhid Polkovnik İlqar Mirzəyevin xatirəsinə həsr olunan şahmat üzrə onlayn turnir keçirilib.

Yarışda 60 şahmatçı mübarizə aparıb. Oğlanların yarışında Yunis Mahmudzadə, Orxan Bağırov və Eyvaz Əliyev fərqləniblər. Qızların mübarizəsində isə Nurtən Nuriyeva, Şəms Fərzəli və Ləman Nağıyeva isə ilk üçlükdə yer alıblar.

## Şəhid kapitan Rəşad Abdullayevin xatirə turnirində

***Bakı Şəhər və Cəlilabad Rayon Gənclər və İdman idarələrinin, eləcə də "İDEA" şahmat klubunun birgə təşkilatçılığı ilə şəhid kapitan, "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilən Rəşad Abdullayevin xatirəsinə həsr olunmuş onlayn şahmat turniri keçirilib.***




Turnirin açılış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısının müavini Elnarə Həsənova, rayon gənclər və idman idarəsinin rəisi Elçin Hüseynov, qadınlardan ibarət milli komandanın baş məşqçisi Fikrət Sideifzadə, şəhid Rəşad Abdullayevin ailə üzvləri iştirak ediblər.

80-dən çox şahmatçının iştirak etdiyi turnirdə ən yüksək nəticə göstərən Amin Qurbanov, Nərmin Abdinova, Yunis Mahmudzadə ilk üçlükdə qərarlaşıblar. Qızların arasında yarışda Fatimə Mirzəliyeva birinci, Leyla Budaqova ikinci, Aytac Məmmədova üçüncü yerləri tutublar.

## "Karabakh is Azerbaijan"ın finalçıları bəlli oldu

*(Əvvəli 1-ci səhifədə)*

Bunlar 8 mərhələnin ümumi yekunlarına görə daha yüksək nəticə göstərmiş Elnur Mehtiyev (İmişli - 30 xal), Orxan Bağırov (Bakı - 20 xal), Şəhriyar Rəhmanov (Quba - 19 xal), Yusif Mustafazadə (Bakı - 19 xal), Kutay Sakmak (Türkiyə - 16 xal), İsmayıl Qurbanov (Bakı - 16 xal), İsmayıl Süleymanlı (Bakı - 15 xal), Ləman Hacıyeva (Sumqayıt - 14 xal), Kənan İsbatov (Bakı - 10 xal) və Aydın Allahverdiyevdir (Bakı - 10 xal).

İndiyədək keçirilmiş seriya yarışlarında Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Ukrayna və Hindistandan ümumilikdə 264 şahmatçı mübarizə aparıb.

Qeyd edək ki, seiyanın böyük finalı martın 14-də keçiriləcək və 9 turdan ibarət olacaq.

## Boksçuların təlim-məşq toplanışları keçirilir

***Boks üzrə Azərbaycan millisinin Avropa Olimpiya təsnifat turnirinə hazırlıqla bağlı təlim-məşq toplanışı başlayıb.***

***Baş məşqçi Umberto Orta Dominqesin rəhbərlik etdiyi yığmamız hazırlığı Türkiyənin Kastamonu şəhərində keçir.***

Təlim-məşq toplanışında Rüfət Hüseynov, Məsud Yusifzadə (52 kq), Ümid Rüstəmov, Tayfur Əliyev (57 kq), Cavid Çələbiyev, Ruslan Rüstəmov (63 kq), Sərxan Əliyev, Lorenzo Sotomayor, Nəbi İsgəndərov (69 kq), Kamran Şahsuvarlı (75 kq), Alfonso Dominqes (81 kq), Osnay Benkoma (91 kq) və Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) iştirak edirlər. Boksçularımızın hazırlığı martın 21-dək davam edəcək.

Boksçularımız hazırlıq çərçivəsində İstanbulda martın 16-da start götürəcək və beş gün davam edəcək Boğaziçi turnirində də mübarizə aparacaqlar.

# İdman Akademiyasında ÜST nümayəndəsi ilə görüş keçirilib



***Martın 2-də Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Hande Harmancı ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) görüş olub.***

Görüşdə Hande Harmancı son illər Akademiyada həyata keçirilən islahatlarla, o cümlədən London Kollec Universiteti (UCL) ilə əməkdaşlıq çərçivəsində həkimlərin ixtisaslaşması üçün təsis edilmiş ingilisdilli ”İdman tibbi və reabilitasiya” magistratura proqramı ilə tanış olub. O, həmçinin hazırda İkinci Qarabağ müharibəsinin 60-dək qazisinin reabilitasiyasının aparıldığı elmi-tədris laboratoriyasını və müxtəlif layihələrin həyata keçirildiyi Multimedia mərkəzini ziyarət edib.

Sonra Hande Harmancı Akademiyanın rəhbərliyi ilə görüşüb. Görüşdə Hande Harmancı Azərbaycan Hökumətinin ÜST ilə razılaşması çərçivəsində köməkçi texnologiyalar (məsələn, təkərli oturacaqlar, eşitmə cihazları, protezlər, eynəklər və s.) sektorunun gücləndirilməsi layihəsi barədə ətraflı məlumat verib. Qeyd olunub ki, layihə çərçivəsində prioritet köməkçi vasitələrin milli siyahısının hazırlanmasında Azərbaycana texniki dəstək göstərəcək. Layihə çərçivəsində keçiriləcək ”Köməkçi texnologiyaların sürətli qiymətləndirməsi” sorğusu (rATA, rapid Assistive Technology Assessment survey) əhalinin köməkçi texnologiyalardan istifadəsi ilə bağlı mövcud vəziyyəti qiymətləndirməyə imkan verəcək.

O, layihəyə göstərilən dəstəyə görə ADBTİA-ya təşəkkürünü bildirib. Ölkədə ali təhsil müəssisəsi səviyyəsində daxili və xarici tədqiqat layihələrinin ekspertizasını həyata keçirən yeganə etik komitə olan ADBTİA-nın Bioetika Komitəsi tərəfindən həmin layihəyə baxılıb və müsbət rəy verilib.

ADBTİA-nın dəstəyini, reabilitasiya sahəsində mütəxəssislər hazırlamasını və elmi işlər aparmasını nəzərə alan Hande Harmancı Akademiyanı layihənin həyata keçirilməsində iştiraka dəvət edib.

Söhbət zamanı Akademiyanın rektoru Fuad Hacıyev ÜST ilə əməkdaşlığın inkişafından məmnun olduğunu və çox əhəmiyyətli olan layihəyə töhfə verməkdən qürur duyduğunu bildirib.

Görüşdə ÜST ilə ADBTİA arasında layihə üzrə əməkdaşlıq məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

# MOK milli idman federasiyalarının mətbuat katibləri üçün təlim təşkil edib



***Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) milli idman federasiyalarının mətbuat katibləri ilə işin gücləndirilməsi, o cümlədən müxtəlif sahələrdə bilik və bacarıqlarının artırılması istiqamətində onlara əlavə imkanların yaradılması məqsədilə yeni layihələr reallaşdırır.***

MOK-un idmançılar üçün təşkil etdiyi sosial media təlimlərinin növbəti mərhələsində Olimpiya idman növlərinə aid federasiyaların mətbuat xidməti rəhbərləri və komitə ilə sıx əməkdaşlıq edən Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin nümayəndələri də iştirak ediblər.

Komitənin marketinq şöbəsinin mütəxəssisi Səkinə Vəliyeva və rəqəmsal marketinq üzrə mütəxəssis Müşfiq Şirəliyevin keçidkləri təlimdə güləş, karate, atletika, badminton və qılıncoynatma federasiyalarının mətbuat xidmətlərinin rəhbərləri iştirak ediblər. İştirakçılara sosial media marketinqi və onun xüsusiyyətləri, hədəfə çatmaq üçün sosial mediadan düzgün istifadə olunması kimi bir çox vacib məqamlar haqda məlumat verilib.

Pandemiya şəraitinə uyğun olaraq, SMM təlimləri mərhələli şəkildə kiçik qruplarla təşkil olunur. Təlimlərin məqsədi Azərbaycanda idman haqda xəbərlərin, Olimpiya ideyalarının sosial media üzərindən peşəkar şəkildə yayılmasına şərait yaratmaqdır.

Komitə idman federasiyalarının mətbuat xidmətləri rəhbərləri üçün əlavə bilik və bacarıqlar verilməsinə imkan yaradan fəaliyyət növlərinə aid növbəti təlimlər keçirməyi də planlaşdırır.

# Olimpiya mükafatçıları ilə onlayn görüş keçirilib

***Fevral 25-də Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Yay Olimpiya və Paralimpiya oyunlarının qalib və mükafatçıları İlham Zəkiyev, Şahin İmranov, Fuad Aslanov, Kərim Sərdarov, Tofiq Məmmədov, Rövşən Səfərov, Natiq Qurbanlı, Kənan Quliyev və onların məşqçiləri ilə ”Olimpiya kürsüsü” başlığı altında görüş keçirilib.***



Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Baş İdarənin rəisi Elgün Hümbətov bildirib ki, respublikamız müstəqillik qazandıqdan sonra şəhərin 20 idmançısı Yay Olimpiya və Paralimpiya oyunlarında iştirak edib, ümumilikdə 2 qızıl, 4 gümüş və 4 bürünc medal olmaqla, 10 medal qazanıblar. O, idman növləri üzrə keçiriləcək lisenziya yarışlarında şəhər idmançılarının uğurla çıxış edəcəklərinə, qarşıdan gələn oyunlarda iştirak etmək hüququ qazanacaqlarına, medalların sayını artıracaqlarına ümid etdiyini bildirib. Daha sonra çıxış edən Əhməd Rəcəbli, Qərib Əliyev, İbrahim İbrahimov, İlham Zəkiyev, Fuad Aslanov, Şahin İmranov, Rövşən Səfərov, Kənan Quliyev keçdikləri idman yolundan, əldə etdikləri uğurlardan və ölkə başçısı cənab İlham Əliyevin bütün sahələrdə olduğu kimi idman sahəsində də idmançılara göstərdiyi diqqət və qayğıdan danışıblar.

Görüşdə idmançıları maraqlandıran suallar cavablandırılıb.

# Medianın İnkişafı Agentliyində idman mətbuatına dəstək mövzusunda görüş keçirilib

***Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ilə Azərbaycan İdman Jurnalistləri Federasiyasının (AİJF) prezidenti Qabil Mehdiyev arasında görüş keçirilib.***

Görüşdə AİJF-nin Agentliyə təqdim etdiyi təkliflər paketi və idman mediasına mümkün dövlət dəstəyi ilə bağlı müzakirələr aparılıb.

Ə.İsmayılov qeyd edib ki, təqdim olunan bəzi təkliflər Agentliyin qarşısına qoyduğu planlarla üst-üstə düşür.

Görüşdə, həmçinin Agentliyin fəaliyyətində heç bir media nümayəndəsinə fərq qoymayacağı, idman jurnalistlərinin də digər media nümayəndələri kimi dövlətin yaratdığı imkanlardan istifadə edə biləcəkləri vurğulanıb. Qeyd edilib ki, yaxın gələcəkdə tətbiqi planlaşdırılan yeniliklərə əsasən, istər qəzetlər, istər saytlar, istərsə də digər media subyektləri tərəfindən biznes layihələrinin hazırlanıb Agentliyə təqdim edilməsi nəzərdə tutulur. Bu layihələr həmin media subyektinin gələcək inkişafına təkan vermək məqsədi daşımalıdır. Agentlik perspektivli olacağına əmin olduğu təqdirdə həmin layihələrin və onları təqdim edən media qurumlarının dəstəklənməsi istiqamətində tədbirlər həyata keçirə bilər. İdman saytları da layihələrlə çıxış etmək imkanından faydalana biləcəklər.

Söhbət zamanı bildirilib ki, ötən il olduğu kimi, bundan sonrakı dövrdə də idman jurnalistləri Agentlik tərəfindən təşkil edilən yazı müsabiqələrinə qatıla bilərlər.

# FIDE Vüqar Həşimov Şahmat Akademiyasını rəsmi olaraq təsdiqləyib

***Dünyanın tanınmış qrossmeysterlərindən biri olan mərhum şahmatçımız Vüqar Həşimovun adını daşıyan Vüqar Həşimov Şahmat Akademiyası Beynəlxalq Şahmat Federasiyasında (FIDE) rəsmi olaraq təsdiqlənib.***

FIDE tərəfindən təsdiqlənən ABŞ, Rusiya, Almaniya, Sinqapur, Fransa, Malayziya, Qazaxıstan, Belarusiya kimi ölkələrin şahmat akademiyaları siyahısına Azərbaycandan Vüqar Həşimov Şahmat Akademiyası da qoşulub.

Qeyd edək ki, Vüqar Həşimov Şahmat Akademiyası 2016-cı ildən fəaliyyətə başlayıb. Akademiyanın açılış mərasimi həmin il oktyabrın 1-də keçirilib. Vüqar Həşimov adına Şahmat Fondu nəzdində yaradılmış bu Akademiya ölkədə şahmatın inkişaf etdirilməsində, yeni istedadların üzə çıxarılmasında öz xidmətini göstərir, burada müxtəlif səviyyəli turnirlər, ustad dərsləri, eyni vaxtda oyun seansları keçirilir, habelə Azərbaycanın aparıcı şahmatçı və məşqçilərinin mühazirələri təşkil edilir.

2017-ci ilin aprelində Beynəlxalq Şahmat Federasiyasının o zamankı prezidenti Kirsan İlümjinov Bakıda olarkən Vüqar Həşimov Şahmat Akademiyası ilə tanış olub. 2019-cu ilin aprelində sabiq dünya çempionu Vişvanatan Anand burada uşaqlar üçün seans keçirib.

# Nailiyyətlər əldə etmiş gimnastlarımıza “İdman ustası” adı verilib



***Gənclər və İdman Nazirliyi gimnastika sahəsində nailiyyətlər qazanmış idmançıların bir qrupunu ”İdman ustası” fəxri adı ilə təltif edib.***

2020-ci ildə Kiyevdə keçirilmiş bədii gimnastika üzrə Avropa çempionatında gümüş və bürünc medal qazanmış qrup hərəkətləri komandamızın üzvləri - Məryəm Səfərova, Darya Sorokina, Yelizaveta Luzan, gənclər arasında ilk dünya çempionatının (2019-ci il) gümüş və bürünc medalçısı - Arzu Cəlilova, həm Avropa, həm də dünya çempionatının finalçısı Nərminə Səmədova bu ada sahib olublar.

Təltif olunanlar arasında gimnastikanın daha iki növünün təmsilçiləri də var. Kişi idman gimnastikası üzrə yığma komandanın üzvü, ”Tokio-2020” Olimpiya Oyunlarına lisenziya qazanmış İvan Tixonov və Bakıda keçirilmiş aerobika gimnastikası üzrə Avropa çempionatının (2019-cu il) qalibləri, aerodans komandasının üzvləri - Elçin Məmmədov, Balaxanım Əhmədova, Nərminə Hüseynova, İmran İmranov, Mədinə Mustafayeva, Akif Kərimli, Ayxan Əhmədli, Nigar İbrahimbəyliyə ”İdman ustası” fəxri adı verilib.

# Güləşçilərimiz beynəlxalq turniri 6 medalla başa vurublar



(Əvvəli 1-ci səhifədə)

Gənc güləşçimiz daha sonra yerli pəhləvan üzərində əzmkar qələbə qazanaraq adını yarımfinala yazdırıb. Cəbrayıl Qırğızıstan təmsilçisinə də gücünü göstərərək finala adlayıb. Fevralın 28-də həlledici görüşdə Özbəkistanı təmsil edən İlyas Bekbulatovla qarşılaşan Hacıyev güclü rəqibinə məğlub olaraq gümüş medalla kifayətlənib.

Mübarizəyə 1/16 finaldan qoşulan Turan Bayramov (65 kq) Ukraynanı təmsil edən erməni güləşçiyə son dəqiqədə "tuşe" ilə qalib gəlib. Gəncə güləş məktəbinin yetirməsi Belarus idmançısını da vaxtından əvvəl xalçadan məyus yola salıb. Dörddəbir finalda ABŞ təmsilçisini məğlub edən güləşçimiz finalın bir addımlığında qırğız güləşçiyə məğlub olub. Turan fevralın 27-də 3-cü yer uğrunda görüşdə Ukraynanı təmsil edən digər erməni güləşçini də məğlubiyyətə uğradaraq bürünc medala sahib olub.

Vahid Qalayev startda təcrübəli Rusiya güləşçisini məyus edib. Ancaq daha sonra polşalı həmkarına uduzub. Rəqib finala yüksəldiyi üçün Qalayev fevralın 28-də təsəlliverici görüşə çıxıb və türkiyəli idmançı üzərində əzmkar qələbəyə sevinib. Vahid bürünc medal uğrunda Moldova təmsilçisi ilə qarşılaşıb və onun da öhdəsindən gəlməklə üçüncü yeri tutub.

Ötən il İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında bürünc medal qazanan Əli Rəhimzadə Azərbaycan Güləş Federasiyasının saytına verdiyi açıqlamada Kiyev turnirinə hazırlıq və yarışdakı çıxışı ilə bağlı fikirlərini bildirib. O, qeyd edib ki, əslində ilin əvvəlində Fransada keçirilən "Qran-pri" turnirində iştirak etməli olsa da, zədələndiyi üçün Nitsaya gedə bilməyib. Bakıda fiziki hazırlıq üzərində qurulmuş yaxşı təlim-məşq toplanışı keçdiklərini bildirən güləşçi fevralın 8-dən Mahaçqalada hazırlıqlarını davam etdirdiklərini və Dağıstanın ən güclü güləşçiləriylə birgə yüksək səviyyədə toplanış keçdiklərini deyib. Turnirlə bağlı fikirlərini açıqlayan idmançımız qeyd edib ki, finalda komanda yoldaşı Turan Bayramovla maraqlı görüşü ola bilərdi: "Turnirə gəlincə, bu il ilk yarışıma çıxırdım. Əlbəttə, bir qədər həyəcan var idi. Ancaq ilk görüşdən sonra bu həyəcan keçdi. Yalnız ukraynalı Vasili Şuptarla qarşılaşma çətin keçdi. Bu da ona görə idi ki, qırğız Alibek Osmanovla görüşdən cəmi 15 dəqiqə sonra məni xalçaya çağırdılar. Şuptar təcrübəli güləşçidir. Ancaq son saniyələrdə qələbə xalını ala bildim. Şota Partenadzeylə görüş 3:3 başa çatsa da, həmin qarşılaşmanı rahat keçirdim. Çünki qələbə qazanacağıma inanırdım. Finalda məğlub etdiyim Qırğızıstan güləşçisi də güclü idi. Açığı, finalda Turan Bayramovla qarşılaşacağımı düşünürdüm. Təəssüf ki, Ernazar Axmataliyevlə görüşdə bəzi səhvlərdən rəqibə xallar verdi. Yoxsa Turanla finalda maraqlı görüşümüz ola bilərdi".

Bu il qatıldığı ikinci turnirdə medal qazanan Turan Bayramov da turnirlə bağlı fikirlərini açıqlayıb.

Fransada keçirilən Henri Deqlan "Qran-pri"sində 65 kqda üçüncü yeri tutan istedadlı güləşçimiz Kiyev turnirində də bürünc medal qazanıb. Gəncə güləş məktəbinin yetirməsinin budəfəki uğuru daha əlamətdar olub. Belə ki, gənc pəhləvanımız yarış boyunca Ukraynanı təmsil edən iki erməni əsilli idmançı üzərində inamlı qələbə qazanıb.

Turan həm bu qarşılaşmalar, həm də turnirdəki ümumi çıxışı ilə bağlı bildirib ki, erməni güləşçilərinə heç vaxt uduzmayıb: "Kiyev turnirində ilk rəqibimin erməni əsilli Qor Ohannesyan olduğunu eşidəndə çox sevindim. Çünki onunla qan yaddaşımız olan Xocalı faciəsinin ildönümündə qarşılaşacaqdım. Məğlubiyyət ağlımdan keçmirdi. Son ana kimi əmin idim ki, qalib gələcəyəm. Çünki yüksək inam və motivasiya ilə güləşirdim. Bunun da nəticəsi olaraq erməni rəqibimə qalib gəldim.

Yarımfinalda Qırğızıstan güləşçisi ilə qarşılaşmada bir səhv həlledici oldu və məğlubiyyətimlə nəticələndi. Bürünc medal uğrunda görüşdə erməni ilə qarşılaşacağımı eşidəndə sevindim. Çünki mən indiyə kimi heç vaxt erməni güləşçilərə uduzmamışam. Şükürlər olsun ki, karyeram boyunca ermənilərlə 7 görüşün hamısında qalib gəlmişəm. Düzdür, Erik Aruşanyan güclü rəqib idi. Amma rahat qələbə qazandım".

Qadın güləşçilərimizdən Türkan Nəsirova (50 kq) debütdə türk rəqibindən güclü olub. Həmyerlimiz Belarus təmsilçisini də çətinlik çəkmədən yenərək yarımfinala yüksəlib. Ancaq finalın bir addımlığında Polşa idmançısına minimal fərqlə uduzub. Türkan fevralın 27-də keçirilən bürünc medal görüşündə Moldova təmsilçisinə qalib gəlməklə təsəlli tapıb.

Beləliklə, sərbəst güləş yığmamız Kiyev turnirini 2 qızıl, 1 gümüş və 2 bürünc, qadın millimiz isə 1 bürünc medalla başa vurub.

# Cüdoçularımız "Böyük dəbilqə"də iki medal qazanıblar

(Əvvəli 1-ci səhifədə)

İdmançımız bürünc medal görüşündə Özbəkistanın digər təmsilçisi Şermuxammad Jandreyev ilə qarşılaşmanı qələbə ilə başa vuraraq üçüncü yeri tutub.

Komandamızın daha bir üzvünün medal qazanmaq şansı olsa da, o, bunu əldən verib. Belə ki, Uşangi Kokauri (+100 kq yuxarı) də turnirə qələbə ilə başlayıb. Cüdoçumuz əvvəlcə Vinçentso Darko (İtaliya), daha sonra rusiyalı Anton Krivobokov və dörddəbir finalda finlandiyalı Marti Pyymalayneni məğlub edib. Yarımfinalda yaponiyalı Kokoro Kaqeyreyə uduzan idmançımız üçüncü yer uğrunda koreyalı Kim Minjonq ilə də bacarmayıb və turniri medalsız tərk edib.

Beləliklə, Azərbaycan komandası yekun nəticədə 2 bürünc medalla komanda hesabında 14-cü pillədə qərarlaşıb.

Turnirdə ən yüksək nəticəni Yaponiya (9 qızıl, 1 gümüş, 1 bürünc) komandası göstərib. Monqolustan (2 qızıl, 2 gümüş, 1 bürünc) və Cənubi Koreya (1 qızıl, 1 gümüş, 4 bürünc) sonrakı pillələrdə qərarlaşıblar. Hərəyə 1 bürünc medal qazanan Rusiya, Fransa kimi cüdo ölkələri ilk 15-likdən kənarda qalıblar.

Xatırladaq ki, Tokio Olimpiadasına lisenziya xarakteri daşıyan bu nüfuzlu turnirdə dünyanın 71 ölkəsindən 500-ə yaxın cüdoçu mübarizə aparıb. Azərbaycan komandası yarışa 12 idmançı ilə qatılıb.

Qeyd edək ki, kişi cüdoçularımız turnirdən sonra Daşkənddə qalıb "Tokio-2020"yə hazırlıq çərçivəsində təlim-məşq toplanışında iştirak edəcəklər. Onlarla yanaşı, komandanın liderləri sayılan digər cüdoçular da turnirin sonuncu günü Daşkəndə gəlib Özbəkistan yığması ilə birgə keçiriləcək təlim-məşqə qoşulacaqlar. Qadınlardan ibarət komandamız Albaniyada hazırlıq keçəcək. Onların təlim-məşq toplanışı martın 10-dan 20-dək təşkil olunacaq.

# "Vüqar Həşimov" komandası Avropa kubokuna qatılacaq



*Azərbaycan şahmatçıları martın 27-də start götürəcək klublar arasında onlayn Avropa kubokunda iştirak edəcəklər.*

Yarışa qatılacaq "Vüqar Həşimov" klubunun heyətində Rauf Məmmədov, Vüqar Əsədli, Aydın Süleymanlı, Əhməd Əhmədzadə, Ülvi Sadıqov yer alıblar. Komandamızın heyətinə daha bir şahmatçı qatıla bilər. Komandanın kapitanı FIDE məşqçisi Anar Allahverdiyev olacaq.

Qeyd edək ki, qitə kubokunda iştirak edəcək komandanın heyəti 4 əsas, iki ehtiyat oyunçudan ibarət olacaq. Onların da orta reytinqi 2000-dən az olmamalıdır. Şahmatçılar martın 27-28-də təsnifat mərhələsində, ayın 29-da pley-offda, 30-31-də isə final oyunlarında mübarizə aparacaqlar.

# İki şahmatçımız reytinqin ilk onluğunda

***Beynəlxalq Şahmat Federasiyası (FIDE) 2021-ci il martın 1-nə olan reytinq siyahısını açıqlayıb.***

Dünya reytinqinə görə, ilk onluqda qərarlaşan Şəhriyar Məmmədyarov (2770) 8-ci, dünya kubokunun qalibi Teymur Rəcəbov (2765) isə 10-cu pillədədir. Digər şahmatçılarımız - 1 pillə geriləyən Qədir Hüseynov 2665 xalla 72-ci, Nicat Abbasov isə 2664 xalla 75-ci sırada qərarlaşıblar. Rauf Məmmədov (2654 xal) isə 3 pillə geriləyərək 90-cı yerdə qərarlaşıb.

Kişi şahmatçıların siyahısına norveçli dünya çempionu Maqnus Karlsen (2847) başçılıq edir.

Qadın şahmatçılardan Günay Məmmədzadə 2443 xalla 29-cu, Gülnar Məmmədova (2383) 79-cu, Xanım Balacayeva 2376 xalla 89-cu yerdədirlər.

Qadın şahmatçılar arasında ən yüksək reytinq xalı (2658) çinli Yifan Houya məxsusdur.

# Dünya Çimərlik Oyunlarından bürünc medal

Dünya Çimərlik Oyunlarının güləş yarışlarında iki çəkidə medalçılar dəyişib.

Belə ki, Ümumdünya Antidopinq Agentliyi (WADA) 2019-cu ilin oktyabrında Qətərin paytaxtı Dohada keçirilmiş ilk Dünya Çimərlik Oyunlarının güləş yarışlarında qadınlarda 50 kq-da, kişilərdə isə +90 kq-da çıxış edən idmançılardan birinin dopinq testinin müsbət çıxdığını elan edib. Yasaq preparatdan istifadə etdiyi aşkarlanan iranlı Puya Rəhmani qazandığı qızıl medaldan məhrum olub. Nəticədə ən ağır çəkidə növbəti yerləri tutanlar müvafiq olaraq bir pillə yüksəlib. Beləliklə, Ufuk Yılmaz (Türkiyə) qızıl, Mamuka Kordzaya (Gürcüstan) gümüş, Oyan Nəzəriani isə bürünc medalçı elan olunub. Qeyd edək ki, Oyan yarımfinalda dopinqdən istifadə edən Rəhmaniyə məğlub olmuşdu.

Bununla da, ilk Dünya Çimərlik Oyunlarında güləşçilərimizin qazandığı medalların sayı üçə çatıb. Xatırladaq ki, Pənah İlyaslı (70 kq) və İbrahim Yusubov (80 kq) Dohada gümüş medal qazanıb.

# Ümumdünya Antidopinq Agentliyi və AMADA rəhbərliyi arasında görüş keçirilib




*Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) prezidenti Vitold Banka, baş direktoru Olivie Niqli ilə Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) direktoru Şəfəq Hüseynli arasında görüş keçirilib.*

Videokonfrans formatında keçirilən görüşdə ÜADA-nın 2020-2024-cü illər üzrə strateji planında müəyyənləşdirilmiş hədəflərlə bağlı görülmüş işlər müzakirə edilib, milli antidopinq təşkilatları və digər tərəfdaşlarla əməkdaşlığın vacibliyi vurğulanıb. Gündəlikdə duran digər bir məsələ isə idmançıların antidopinq proseslərinə cəlb edilməsi ilə bağlı olub.

Görüşdə, həmçinin ÜADA-nın fəaliyyətinin səmərəliliyinin artırılması üçün təhsil, araşdırma və inkişaf istiqamətlərində istifadə etmək üçün əlavə maliyyə mənbələrinin cəlb olunması və Antidopinq Həmrəylik Fondunun fəaliyyət mexanizmi ilə bağlı fikir mübadiləsi aparılıb.

Müzakirələrdə ÜADA-nın idarəetmə prinsip və mexanizmlərinin təkmilləşdirilməsi barədə 2018-ci ilin noyabrında Bakıda keçirilən Təsisçilər Şurası və İcraiyyə Komitəsinin qərarı üzrə indiyədək atılmış addımlar da diqqət mərkəzində olub.

Bundan əlavə, ABŞ tərəfindən qəbul edilmiş "Rodçenkov Antidopinq Aktı"nın xüsusiyyətləri və praktiki tətbiqi ilə bağlı yaranan suallar, habelə İdman Arbitraj Məhkəməsinin (CAS) RUSADA ilə bağlı qərarı və bunun nəticələri barədə fikir mübadiləsi aparılıb.

ÜADA-nın prezidenti Vitold Banka bildirib ki, idmanda bütövlüyün qorunması bütün maraqlı tərəflər arasında səmərəli əməkdaşlıq tələb edir. Buna görə bu cür görüşlərin keçirilməsi görülmüş və görüləcək işlərin səmərəliliyi baxımından vacibdir. Vitold Banka ÜADA-nın fəaliyyətindəki yeniliklər, o cümlədən 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsinin tətbiqində qarşıya çıxan məsələlərdən danışıb.

Görüşdə AMADA-nın direktoru Şəfəq Hüseynli ölkəmizdə antidopinq sahəsindəki vəziyyət, baş verən yeniliklər, yeni Ümumdünya Antidopinq Məcəlləsinin tətbiqi ilə bağlı görülən işlər və AMADA-nın həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib.

## III Avropa Oyunlarının proqramına yeni idman növləri daxil edilib

***Kamandan oxatma və muay-tay idman növləri 2023-sü ildə Polşanın Krakov və Malopolye şəhərlərində keçiriləcək III Avropa Oyunlarının proqramına daxil edilib.***

Bu barədə Avropa Olimpiya Komitələrinin (EOC) saytında məlumat verilib. Min ildən çox tarixi olan bu qədim döyüş sənəti dünyada ən çox məşhurlaşan idman növlərindən biridir. III Avropa Oyunlarında muay-tay yarışları gender bərabərliyi nəzərə alınmaqla təşkil ediləcək. Bu səbəbdən həm kişi, həm də qadın idmançılar 7 çəki dərəcəsində mübarizə aparacaqlar.

III Avropa Oyunlarının proqramına qeyd etdiyimiz idman növü ilə yanaşı, atıcılıq, müasir beşnövçülük, taekvondo, karate, çimərlik həndbolu, badminton, boks, kamandan oxatma, sinxron üzgüçülük, basketbol - 3x3, breyk-dans, kanoe (kayak və kanoe, kanoe slalom), velosiped idmanı (BMX, şose), qılıncoynatma, gimnastika, cüdo, karate, dağ qaçışı, reqbi-7, tramplindən tullanma (yay), idman dırmanması, stolüstü tennis, triatlon, voleybol, çimərlik voleybolu, ağırlıqqaldırma da daxildir. III Avropa Oyunları 2023-cü il iyunun 9-dan 25-dək keçiriləcək.

Xatırladaq ki, I Avropa Oyunlarına 2015-ci ildə Bakı, II Avropa Oyunlarına isə Minsk ev sahibliyi edib.

## Azərbaycan atleti Qış Avropa çempionatında ikinci yeri tutub

***Azərbaycan atleti Aleksis Kopello Polşanın Torun şəhərində keçirilən Qış Avropa çempionatında gümüş medal qazanıb.***

Təmsilçimiz üçtəkanla tullanma yarışında 17,04 metrlik nəticə göstərib. Bununla da o, mövsüm ərzində özünün ən yaxşı nəticəsinə imza atıb.

Bu yarışda qızıl medala Portuqaliyanı təmsil edən kubalı Pedro Pablo Piçardo nail olub. O, 17,30 metrlik göstərici ilə bütün rəqiblərini qabaqlayıb. Almaniyalı Maks Heb isə 17,01 metr nəticə ilə bürünc medala layiq görülüb.




# Top ətrafında

Azərbaycanın futbol millisi iyunun 2-də Minskdə Milli Olimpiya Stadionunda Belarus yığması ilə yoldaşlıq oyunu keçirəcək.

Mərakeş Krallığının ölkəmizdəki səfiri Mohamed Adil Embarç AFFA-nın icraçı vitse-prezident Elxan Məmmədov ilə görüşüb. Görüşdə futbol sahəsində ikitərəfli münasibətlərin inkişaf imkanları müzakirə edilib.

Futbol üzrə dünya çempionatının seçmə mərhələsi çərçivəsində martın 24-də keçiriləcək Portuqaliya - Azərbaycan oyunu İtaliyanın Turin şəhərində, "Yuventus" klubuna məxsus stadionda təşkil olunacaq. Portuqaliya milli komandasının ev oyununun neytral meydanda keçirilməsinin səbəbi COVID-19 pandemiyasıdır.

Futbol üzrə 17-yaşlılardan ibarət Azərbaycan millisinin üzvü Sərkan Aydın Türkiyədə klubunu dəyişib. "Kocaelispor"un müdafiəçisi "Altınordu"ya keçib.

Azərbaycan və Türkiyənin milli futbol komandaları arasında yoldaşlıq oyununun keçirilməsi ilə bağlı AFFA ilə Türkiyə Futbol Federasiyası arasında danışıqlar aparılıb. Əldə olunmuş razılığa əsasən, komandalar bu il mayın 27-də Alanya şəhərindəki "Oba" stadionunda qarşılaşacaqlar.

## Futzal. Avro-2022. Seçmə qrup mərhələsi

### 3-cü tur:

**4 mart. Azərbaycan - Moldova 5:1** *(Fineu, 6:37, Fərzəliyev, 13:44, Əhmədi, 14:51, Bolinya, 26:49, 39:59//Tatsot, 25:15).*

**Azərbaycan milli komandasının heyəti:** Rövşən Hüseynli, Eduardu Borceş, Rafael Vilela, Oliveyra Vilyams "Vassura", Everton Kardozu - Cavad Məmmədov, Telleş Martinş Tyaqu "Bolinya", Əmir Şücayi, Ramiz Çovdarov, Rizvan Fərzəliyev (kap.), Xətai Bağırov, Hadi Əhmədi, İsa Atayev, Fineu de Arauju.

**Baş məşqçi:** Joze Alesiu Da Silva.

**Qrupun digər oyunu: Slovakiya - Yunanıstan 6:0.**

### 4-cü tur:

**7 mart. Yunanıstan - Slovakiya 0:5**

***9 mart. Moldova - Azərbaycan** matçı gec başa çatıb.*

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Azərbaycan | 3 | 3 | 0 | 0 | 12-2 | 9 |
| 2. Slovakiya | 4 | 2 | 1 | 1 | 16-8 | 7 |
| 3. Moldova | 3 | 1 | 1 | 1 | 8-10 | 4 |
| 4. Yunanıstan | 4 | 0 | 0 | 4 | 1-17 | 0 |

**Növbəti oyunlar**

**5-ci tur: 8 aprel.** Slovakiya - Azərbaycan, **9 aprel.** Yunanıstan - Moldova.

**6-cı tur: 13 aprel.** Moldova - Slovakiya, **14 aprel.** Azərbaycan - Yunanıstan.

## Futbol. Azərbaycan çempionatı. Premyer Liqa

### 17-ci tur

***25 fevral (cümə axşamı)***

**"Zirə" (Bakı) - "Neftçi" (Bakı) 1:0** (Davit Volkov, 67).

**"Qəbələ" - "Sumqayıt" 1:0** (Ceyms Adeniyi, 51).

**"Sabah" (Bakı) - "Keşlə" (Bakı) 1:1** (Fofana Tiemoko, 90+1//Şəhriyar Əliyev, 79).

**"Qarabağ" (Ağdam) - "Səbail" (Bakı) 1:0** (Xayme Romero, 72).

### 18-ci tur

***2 mart (çərşənbə axşamı)***

**"Qarabağ" - "Qəbələ" 3:0** (Filip Ozobiç, 22, 34-pen., Mahir Emreli, 38).

**"Səbail" - "Keşlə" 1:1** (Peyman Keşavarzi, 75//Tural Axundov, 54).

***3 mart (çərşənbə)***

**"Sumqayıt" - "Zirə" 0:0.**

**"Neftçi" - "Sabah" 2:1** (Namiq Ələsgərov, 45, Mirabdulla Abbasov, 64//Təmkin Xəlilzadə, 90+3-pen.).

### 19-cu tur

***8 mart (bazar ertəsi)***

**"Sabah" - "Sumqayıt" 1:1** (Təmkin Xəlilzadə, 34//Camaləddin Xocaniyazov, 69).

**"Neftçi" - "Keşlə" 3:1** (Namiq Ələsgərov, 6, 64-pen., Ömər Buludov, 19//Azər Salahlı, 81).

***9 mart (çərşənbə axşamı)***

**"Qəbələ" - "Səbail" 1:1** (Rafael Utriq, 78//Amil Yunanov, 57).

**"Zirə" - "Qarabağ" 0:2** (Xayme Romero, 3, Patrik Andrade, 32).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. "Neftçi" | 19 | 12 | 3 | 4 | 26-19 | 39 |
| 2. "Qarabağ" | 19 | 11 | 6 | 2 | 44-13 | 39 |
| 3. "Zirə" | 19 | 7 | 8 | 4 | 23-20 | 29 |
| 4. "Sumqayıt" | 19 | 6 | 7 | 6 | 21-22 | 25 |
| 5. "Qəbələ" | 19 | 5 | 6 | 7 | 17-27 | 22 |
| 6. "Səbail" | 19 | 4 | 5 | 9 | 19-29 | 18 |
| 7. "Keşlə" | 19 | 3 | 7 | 9 | 18-30 | 16 |
| 8. "Sabah" | 19 | 4 | 4 | 11 | 19-27 | 16 |

**Bombardir: 13** - Namiq Ələsgərov ("Neftçi"), **12** - Mahir Emreli ("Qarabağ").

İDMAN

№ 7 (7102) 13 aprel 2021

# Seul və Pxenyan 2032-ci il Yay Olimpiya Oyunlarına iddialıdır

***Koreya Respublikasının paytaxtı Seulun meriyası 2032-ci ildə Yay Olimpiya Oyunlarının Koreya Xalq Demokratik Respublikasının (KXDR) paytaxtı Pxenyanla birgə təşkili üçün Beynəlxalq Olimpiya Komitəsinə (BOK) təklif göndərib.***



Seul meriyası yazılı təklifi BOK-un Olimpiya Oyunlarının ev sahibini müəyyən edən komissiyaya təqdim edib. Bildirilir ki, Seul meriyası BOK-un İcraiyyə Komitəsinin fevralda Avstraliyanın Brisben şəhərinin 2032-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcək əsas namizəd şəhər elan etməsi qərarından təəssüflənib. Komitə ilə məsləhətləşmələr aparan Koreya Respublikası tərəfi Seul və Pxenyanın Olimpiya Oyunlarına birgə ev sahibliyi etməkdən ötrü namizədliyin irəli sürülməsinə müsbət cavab alıb. Koreya Respublikası BOK-dan ev sahibliyi edəcək şəhər barədə yekun qərar verilmədiyindən digər şəhərlərlə danışıqların davam etdirilməsini xahiş edib.

Qeyd edək ki, Seul və Pxenyanın 2032-ci ildə Yay Olimpiya Oyunlarının birgə təşkili barədə əməkdaşlıq qərarı Koreya Respublikasının Prezidenti Mun Cein və KXDR-in lideri Kim Çen İnın 2018-ci ilin sentyabrında Pxenyanda imzaladıqları birgə bəyannamədə əksini tapıb. Bu barədə qərar isə hər iki tərəfin müvafiq qurumlarının nümayəndələrinin KXDR-in Keson şəhərində keçirilmiş görüşündə qəbul olunub.

# Triatlon və idman dırmanması üçüncü Avropa Oyunlarının proqramına daxil edilib

***Triatlon və idman dırmanması 2023-sü ildə Polşanın Krakov və Malopolye şəhərlərində keçiriləcək III Avropa Oyunlarının proqramına daxil edilib.***




Triatlon ilk dəfə ”Bakı 2015” birinci Avropa Oyunlarının proqramında yer alsa da, 2019-cu ildə Belarusun paytaxtı Minskdə keçirilmiş analoji yarışda təmsil olunmayıb.

III Avropa Oyunlarının proqramına qeyd etdiyimiz idman növü ilə yanaşı, atıcılıq, müasir beşnövçülük, taekvondo, karate, çimərlik həndbolu, badminton, boks, kamandan oxatma, sinxron üzgüçülük, basketbol - 3x3, breyk-dans, kanoe (kayak və kanoe, kanoe slalom), velosiped idmanı (BMX, şose), qılıncoynatma, gimnastika, cüdo, karate, dağ qaçışı, reqbi-7, tramplindən tullanma (yay), idman dırmanması, stolüstü tennis, triatlon, voleybol, çimərlik voleybolu, ağırlıqqaldırma da daxildir. III Avropa Oyunları 2023-cü il iyunun 9-dan 25-dək keçiriləcək.

# 64 xana



**Ş**ahmat üzrə ”Naxçıvan Premium Turnir”də Urfan Sevdimalıyev 1-ci, Pərviz Qasımov 2-ci, Toğrul Həsənzadə 3-cü yeri tutublar.

**B**eynəlxalq Şahmat Federasiyası (FIDE) qadınlar arasında komanda dünya çempionatı təşkil edəcək. Sentyabr-oktyabr aylarında təşkili planlaşdırılan yarışda iştirak etmək istəyən komandalar mayın 2-dək qeydiyyatdan keçməlidirlər.

**B**akı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və ”İDEA” şahmat klubunun birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş onlayn şahmat turnirində Amin Qurbanov 1-ci, Yunis Mahmudzadə 2-ci, Əhmədağa Həşimov 3-cü yeri tutublar. Qızlar arasında Aytac Kərimli, Aytac Məmmədova və Röya Çantayeva ilk üçlükdə qərarlaşıblar.

**B**akı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və ”İDEA” şahmat klubunun birgə təşkilatçılığı ilə ”Bahar bayramı”na həsr olunan onlayn şahmat turnirində Yunis Mahmudzadə, İsmayıl Süleymanlı, Aytac Kərimli ümumi hesabda ilk üçlükdə qərarlaşıblar. Qızlar arasında Aytac Məmmədova, U-8 yaş kateqoriyasında Səfa Hümbətov, U-10 yaş kateqoriyasında Paşam Əlizadə, 12 yaşadək idmançılar arasında Məhəmməd Bağırov fərqləniblər.

**Ş**ahmatçımız Eltac Səfərli ”Titled Tuesday Blitz” Qran-Prisinin növbəti yarışında 11 turdan 9,5 xal toplayaraq 2-5-ci yerləri bölüşüb. Digər şahmatçılarımız Murad İbrahimli 7, Mələk İsmayıl 5, Ümid Aslanov 4,5, Ayan Allahverdiyeva 4 xal toplayıblar. Turnirin qalibi 10 xalla FIDE təmsilçisi Alireza Firuzca olub.

# Kapoeyraçılarımızdan iki medal

***Dünya Kapoeyra Federasiyasının (WCF) təşkilatçılığı ilə onlayn ”Joga Maneiro” dünya çempionatı keçirilib.***



Çempionatda Azərbaycan idmançıları ilə yanaşı, Koreya Respublikası, İtaliya, Yaponiya, Polşa, ABŞ, Estoniya, Avstraliya və digər ölkələrdən kapoeyraçılar iştirak ediblər. Bu ölkələr arasında kapoeyranın vətəni olan Braziliya idmançıları da çoxluq təşkil ediblər.

Azərbaycan Kapoeyra Federasiyasının yığma komandası yarışda iki medal qazanıb. İdmançımız Oxçu Şahmuradov (82 kq) yarışa uğurla start verib. Finaladək inamla irəliləyən idmançımız finalda cüzi fərqlə polşalı rəqibinə məğlub olaraq gümüş medalla kifayətlənib.

Digər medalı isə komandamıza Fərid Allahverdiyev (82 kq) qazandırıb. Təmsilçimiz yarışı üçüncü pillədə başa vurub.

# Şəhriyar və Teymur mövqelərini qoruyublar




***Dünya reytinqinə görə, ilk onluqda qərarlaşan şahmatçılarımız Şəhriyar Məmmədyarov və Teymur Rəcəbovun mövqeləri dəyişməz qalıb.***

Belə ki, Ş.Məmmədyarov (2770) səkkizinci, dünya kubokunun qalibi Teymur Rəcəbov (2765) isə onuncu yerdədir.

Digər şahmatçılarımızdan 3 pillə irəliləyən Nicat Abbasov 2665 xalla 72-ci pilləyə yüksəlib, Qədir Hüseynov isə 1 pillə geriləyərək 2665 xalla 73-cü pillədə qərarlaşıb. Rauf Məmmədov (2654 xal) isə 90-cı sıradadır.

Kişi şahmatçıların siyahısına norveçli dünya çempionu Maqnus Karlsen (2847) başçılıq edir.

Qadın şahmatçılardan Günay Məmmədzadə (2443) 28-ci, Gülnar Məmmədova (2382) 79-cu, Xanım Balacayeva (2376) 89-cu yerdədirlər. Çinli Yifan Hou (2658) ən yüksək reytinq xalına malikdir.

# Nicat Məmmədovun “Həlledici taktiki zərbələr” kitabı işıq üzü görüb

**Beynəlxalq qrossmeyster Nicat Məmmədovun yeni kitabı işıq üzü görüb.**



İki cilddən ibarət olan ”Həlledici taktiki zərbələr” kitabının 1-ci cildi üçüncü dərəcəli, 2-ci cildi ikinci dərəcəli şahmatçılar üçün nəzərdə tutulub. Kitab hücumların bitirildiyi standart tematik, taktiki zərbələr haqqındadır. Tətbiq olunan kombinsiyalar yalnız şahın ətrafında olan xanalara tətbiq olunur. Hər iki cildin giriş hissəsində 64 seçilmiş kombinasiya izahlı şəkildə təqdim olunur. Daha sonra 1-ci cilddə 638, 2-cilddə isə 495 praktiki sual verilir. Sonda isə cavablar təqdim edilir.

Qeyd edək ki, hazırda məşqçiliklə məşğul olan təcrübəli qrossmeyster bir neçə şahmat kitabının müəllifidir.

Qəzetin təsisçisi
Azərbaycan Respublikasının
Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə,
III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

“İdman”ın kompüter mərkəzində yığılıb-səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 656
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.